# Bir millət, iki dövlətin əbədi müttəfiqliyi

***1999**-cu il noyabrın 1-də Azərbaycanın dövlətçilik tarixində əlamətdar bir hadisə baş verdi. Ümummilli lider Heydər Əliyev Beynəlxalq Atatürk Sülh Mükafatı ilə təltif olundu. Bu, yalnız bir mükafat deyildi, Azərbaycan-Türkiyə qardaşlığının, iki xalq arasında sarsılmaz bağların simvolik ifadəsi idi. Azərbaycan Prezidentinin səhnəyə çıxaraq böyük türk lideri Mustafa Kamal Atatürkün adını daşıyan və sülhə xidmət edən bir mükafatı qəbul etməsi tarixi an kimi yaddaşlara yazıldı. Ulu öndər Heydər Əliyev öz nitqində bu mükafatın onun üçün əhəmiyyətini belə vurğulamışdı: "Mən həyatımda çox mükafatlar almışam... Keçmişdə gördüyüm işlərə görə mən Sovetlər Birliyi kimi fövqəldövlətin ən yüksək mükafatlarını, nişanlarını almışam. Mən bir çox digər ölkələrin də mükafatlarını, nişanlarını almışam. Ancaq Türkiyə Cümhuriyyətinin mükafatını, Türkiyə Cümhuriyyətinin banisi, böyük öndər Mustafa Kamal Atatürkün adını daşıyan mükafatı almaq və xüsusən sülh adını daşıyan mükafatı almaq mənim üçün böyük şərəfdir. Hesab edirəm ki, bu mükafat mənim indiyə qədər aldığım mükafatların hamısından yüksək, qiymətlidir". Bu fikirlər ulu öndər Heydər Əliyevin nəinki şəxsi qüruru, həm də Azərbaycanın öz milli kimliyinə, dostluğa və barışa verdiyi dəyər idi. Ulu öndər Heydər Əliyev bu mükafatı qəbul edərkən təkcə öz adından deyil, Azərbaycan xalqı adından da sülhə və qarşılıqlı əməkdaşlığa sadiqliyini nümayiş etdirdi. Bu, Azərbaycanın beynəlxalq arenada dəyər qazanan, sülhə töhfə verən bir ölkə olduğunu göstərən unudulmaz bir təntənə idi.*



Azərbaycan-Türkiyə münasibətləri qədim tarixə və ortaq soya əsaslanan, özünün əvəzsiz dostluq və qardaşlıq əlaqələri ilə bütün dünya üçün örnək olan bir tərəfdaşlıq modelidir. Hələ çox illər əvvəl hər iki xalq arasında təməli qoyulmuş bu bağlar dövlətlərarası əlaqələrlə daha da möhkəmlənmişdir. 1991-ci ildə Azərbaycan uzun mübarizələrdən sonra müstəqilliyini bərpa etdikdə onu azad bir ölkə kimi ilk tanıyan Türkiyə oldu. Bu addım iki dövlət arasındakı münasibətlərin tarixi dostluqla yanaşı, strateji xarakter daşıdığını açıq şəkildə göstərdi. 1992-ci ildən etibarən diplomatik əlaqələrin qurulması ilə Azərbaycan-Türkiyə tərəfdaşlığı yeni mərhələyə qədəm qoydu. Həmin il noyabrın 1-də Ankarada imzalanan "Ticarət və İqtisadi Əməkdaşlıq haqqında" saziş isə ikitərəfli münasibətlərdə iqtisadi əməkdaşlığın inkişafına güclü təkan verdi. Bu saziş, eyni zamanda dövlətlərin milli maraqlarına xidmət edən ortaq layihələrin başlanğıcı oldu. Həm qohumluq, həm də tarixi köklərə dayanan bu münasibətlər ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində daha da möhkəmləndi və strateji tərəfdaşlığa çevrildi. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə iki qardaş ölkə arasında əməkdaşlıq iqtisadiyyatdan mədəniyyətə qədər hər sahədə gücləndirildi. Ulu öndər Heydər Əliyevin qardaş ölkə ilə bağlarını daha da möhkəmləndirmək strategiyası hər iki dövlətin milli maraqlarına uyğun olaraq qətiyyətlə icra edildi. 1998-ci il iyunun 9-da isə türkdilli ölkələrin dövlət başçılarının V Zirvə görüşündə bir araya gələn liderlər türk dünyasının birliyi və mənəvi tərəfdaşlığını, onun gələcək inkişaf perspektivlərini müzakirə etdilər. Bu zirvə görüşündə ulu öndər Heydər Əliyev ortaq tarix, milli dəyərlər və eyni mədəniyyətlə yoğrulmuş türk xalqlarının birliyinin vacibliyini vurğuladı. Ümummilli lider Azərbaycan və Türkiyənin dünya sivilizasiyasının inkişafına da töhfələr verdiyini xüsusi qeyd edərək, bu görüşün türk dünyası arasında əməkdaşlıq üçün yeni imkanlar açdığını bildirdi.

80-ci illərin sonları və 90-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində Azərbaycanın ərazi bütövlüyü pozuldu, torpaqları işğal olundu, ölkə ağır bir münaqişəyə sürükləndi. Bu gərgin dövrdə Azərbaycanın sülhsevər siyasətini ilk dəstəkləyən, ölkəmizə hər zaman olduğu kimi bu dəfə də dayaq duran qardaş Türkiyə oldu. Türkiyə Azərbaycan xalqı üçün ən çətin anlarda, keçmiş Qarabağ münaqişəsinin ən çətin günlərində hər zaman ölkəmizə qardaşlıq əlini uzatdı. Ulu öndər Heydər Əliyevin diplomatik bacarığı ilə əldə olunan atəşkəs sazişi həm də Azərbaycanın sülh istəyini, ölkənin regional sabitliyə verdiyi önəmi bir daha ortaya qoydu və bu müdrik siyasətə qardaş Türkiyə böyük dəstək verdi. Azərbaycan və Türkiyə arasında olan əlaqələr təkcə siyasi bəyanatlarla məhdudlaşmadı. İki qardaş ölkə iqtisadi sahədə də birlik və həmrəylik nümayiş etdirərək gələcək nəsillər üçün güclü təməllər qoydu. Azərbaycanın bazar iqtisadiyyatına keçid dövründə gənc bir müstəqil ölkə olaraq irəli sürdüyü böyük layihələrdə Türkiyə etibarlı tərəfdaş kimi ön sırada dayandı. Xüsusilə 1994-cü ildə imzalanan və "Əsrin müqaviləsi" kimi tanınan layihədə Türkiyənin ilk iştirakçılardan biri olması onun Azərbaycana olan inam və dəstəyinin bariz ifadəsidir. Xəzər dənizindəki Azərbaycan neft və qaz yataqlarının birgə işlənilməsi, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin reallaşması iki ölkə arasında iqtisadi əlaqələrin strateji əhəmiyyətini ortaya qoydu. Bu kəmər təkcə enerji marşrutu deyil, Türkiyə və Azərbaycanın müstəqillik və gələcək rifahı üçün bərabər addımladığının canlı sübutu idi. 1998-ci ildə türkdilli dövlətlərin Zirvə görüşündə ümummilli lider Heydər Əliyev və Türkiyə Prezidenti Süleyman Dəmirəlin görüşündə iki lider bir daha bu əlaqələrin sarsılmazlığını təsdiqlədilər. Prezident Heydər Əliyev Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətin Türkiyə olduğunu xatırladaraq bu dostluğun və qardaşlığın əbədiliyini vurğuladı. Cümhurbaşqanı Süleyman Dəmirəl isə Heydər Əliyevin apardığı sülh siyasətinə və Azərbaycanın təhlükəsizliyinin möhkəmləndirilməsi yolundakı misilsiz xidmətlərinə böyük iftixar hissi ilə dəstək verdi. Bu dostluq, çətin gündə də, xoş gündə də yan-yana dayanan iki xalqın, Türkiyə və Azərbaycanın bir-birinə olan sonsuz sədaqətini nümayiş etdirir.

1999-cu ildə ulu öndər Heydər Əliyevin Mustafa Kamal Atatürk Beynəlxalq Sülh Mükafatına layiq görülməsi ümummilli liderin Azərbaycan-Türkiyə arasında qurduğu dərin dostluq və qardaşlıq münasibətlərinə verilən böyük qiymətin təzahürü idi. Bu mükafat təkcə Heydər Əliyevin fəaliyyətinə verilən yüksək bir dəyər deyil, eyni zamanda Azərbaycan və Türkiyə arasında qırılmaz tellərlə bağlanan qardaşlıq münasibətlərinin gücləndirilməsində oynadığı rola göstərilən hörmət və ehtiramın simvolu idi. Bu anı "tarixi hadisə" adlandıran Heydər Əliyev öz çıxışında bu yüksək mükafatın onun üzərinə böyük məsuliyyət qoyduğunu vurğulayaraq dedi: "Əziz dostlar, bu gün mənə bu yüksək Atatürk Mükafatını verməklə üzərimə böyük məsuliyyət qoydunuz və mənim qarşımda böyük vəzifələr durur. Mən bunu hiss edirəm. Mən həm məsuliyyətimi hiss edirəm, həm də vəzifələrimi bilirəm. Vəzifələrim bundan ibarətdir: Azərbaycanın Prezidenti kimi Azərbaycanın dövlət müstəqilliyini qorumaq, saxlamaq və inkişaf etdirmək. Azərbaycanda hüquqi, demokratik, layiqli, dünyəvi dövlət quruculuğu prosesini inkişaf etdirmək və Azərbaycanda demokratiyanı, hürriyyəti, insan haqlarının təmin olunmasını bərqərar etmək. Azərbaycanda bazar iqtisadiyyatını, sərbəst iqtisadiyyatı inkişaf etdirmək, ölkəmizin iqtisadiyyatını dünya iqtisadiyyatı ilə inteqrasiya etmək. Türkiyə-Azərbaycan dostluğunu bundan sonra daha da möhkəmləndirmək və yüksəltmək. Sülh uğrunda mübarizə aparmaq". Ulu öndər Heydər Əliyevin bu sözləri iki ölkə arasında mövcud olan qardaşlıq münasibətlərinin əsasında dayanan dəyərləri açıq şəkildə göstərdi. Bu mükafatın ona təqdim edilməsi Azərbaycanın sülh və sabitliyə verdiyi töhfələri beynəlxalq səviyyədə nümayiş etdirdi. Eyni zamanda onun çıxışı Azərbaycan dövlətinin müstəqilliyini qorumaq, demokratik və hüquqi bir cəmiyyət qurmaq, insan hüquqlarını bərqərar etmək və dünya iqtisadiyyatına inteqrasiya etmək kimi yüksək məqsədlərə sadiqliyini ortaya qoydu. Bu mükafatı qəbul edərkən ulu öndər Heydər Əliyevin vurğuladığı məsuliyyət onun Azərbaycan-Türkiyə əlaqələrini daha da inkişaf etdirmək və sülh naminə fəaliyyət göstərmək arzusu ilə yoğrulmuşdu. Bu tarixi an ulu öndərin iki qardaş xalq arasında qurduğu möhkəm əlaqələrin bariz nümunəsi olaraq Azərbaycan-Türkiyə dostluğunun əbədiliyini bir daha təsdiqlədi. Mərhum Süleyman Dəmirəlin də qeyd etdiyi kimi, Heydər Əliyevin bütün dünyada tanınan sülhsevər siyasəti təkcə Azərbaycan üçün deyil, regionun sabitliyi və tərəqqisi üçün də önəmli bir örnəkdir.

Ulu öndər Heydər Əliyev Türkiyə Cümhuriyyətini haqlı olaraq "Atatürk Cümhuriyyəti", "demokratik cümhuriyyət", "dünyəvi cümhuriyyət" adlandırırdı. Ümummilli lider bütün fəaliyyəti boyu türk xalqının böyük lideri Mustafa Kamal Atatürkün "Yurdda sülh, cahanda sülh" prinsipinə sadiq qalmış və bu irsi müstəqil Azərbaycanın inkişaf yolunda əsas bələdçi kimi qəbul etmişdir. Heydər Əliyevin dərin inamı idi ki, Türkiyənin demokratik mübarizlik yolu və dövlətçilik təcrübəsi təkcə regionun deyil, bütün dünyanın tərəqqisi və xalqların sülh içində yaşaması üçün nümunədir. Siyasi fəaliyyətinin hər mərhələsində türk xalqlarının tərəqqisinə xüsusi diqqət yetirmiş, Türkiyə-Azərbaycan münasibətlərinin dönməz, sarsılmaz qardaşlıq səviyyəsində olmasına böyük əzmlə çalışmışdır. Məhz ulu öndərin təşəbbüsləri ilə iki qardaş ölkə arasında qurulan dostluq münasibətləri illər keçdikcə möhkəmlənmiş, mədəni və iqtisadi bağlarla zənginləşmişdir.

Bu gün Türkiyə və Azərbaycan arasındakı əlaqələr Heydər Əliyevin "bir millət, iki dövlət" ifadəsində həyat tapan əbədi qardaşlıq ideyasının təntənəsidir. Ulu öndər Heydər Əliyevin təməlini möhkəmləndirdiyi Azərbaycan-Türkiyə münasibətlərini strateji müttəfiqlik səviyyəsinə yüksəltmişdir. Ümummilli liderin "bir millət, iki dövlət" fəlsəfəsi iki ölkə arasında qurulan əlaqələrin gələcəyə əmin addımlarla irəliləyəcəyinə zəmanət vermişdir. Bu ideyalar hər iki xalq üçün sarsılmaz dəyər olaraq Azərbaycan və Türkiyənin gələcək nəsilləri üçün yol göstərəcək. Azərbaycan və Türkiyə arasındakı bu qardaşlıq illərlə sınaqdan keçərək bərkiyib və indi bəşəri dəyərlərin, regionda sabitliyin və sülhün simvoluna çevrilib. Bugünkü Azərbaycan-Türkiyə münasibətləri təkcə iki ölkənin deyil, həm də dünya miqyasında ortaq dəyərlərə əsaslanan əsl müttəfiqliyin necə qurulması və necə qorunmasının nümunəsidir.





**Nurlan ABDALOV,**
**"Respublika".**